# Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilir



***Azərbaycan Vətən müharibəsində əldə etdiyi parlaq qələbə ilə bu gün bölgədə yaradılan reallıqların gerçəkləşməsi istiqamətində səmərəli fəaliyyət göstərir, mühüm layihələr həyata keçirir. Ermənistanla münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və demarkasiyası, həmçinin sülh sazişi üzrə danışıqların başlanması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, minaların təmizlənməsi, ölkəmizə yardım və etimad quruculuğu kimi məsələləri diqqət mərkəzində saxlanır. Ölkəmiz, eyni zamanda, dünya dövlətləri ilə münasibətlərin inkişafına, xarici iqtisadi əlaqələrin coğrafiyasının genişlənməsinə, ticarətin əmtəə strukturunun təkmilləşməsinə xüsusi önəm verir.***

Bütün bunlarla bərabər, respublikamızda nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı tədbirlər həyata keçirilir, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilir. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində respublika ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində layihələr gerçəkləşdirilir və bu, Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirir.

Onu da qeyd edək ki, dəyəri 33 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizi bu gün Avropanın enerji təhlükəsizliyində xüsusi çəkiyə və təsir gücünə malikdir. Bir zamanlar xarici təzyiq və müdaxilələr üzündən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə vəsait ayırmaqdan çəkinən beynəlxalq maliyyə institutlarının əksəriyyəti ölkə rəhbərinin müdrik konsepsiyasının gerçəkləşdirilməsi sayəsində sonradan Cənub Qaz Dəhlizinə fərqli münasibət göstərdi, yekdilliklə bu layihəyə dəstək verdi, eyni zamanda, onun icrası dövründə ölkəmizin bu məsələdə fəal mövqeyini və etibarlı tərəfdaş olduğunu yüksək qiymətləndirdi.

Yeri gəlmişkən, Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyinin gücləndirilməsi işinə verdiyi töhfələr Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətin məntiqi nəticəsidir.

Təbii ki, beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl iş də Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsində xüsusi rol oynayıb. Nəticədə son illər ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib.

Azərbaycan bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaşlığını daha da möhkəmlətmək üçün ayrı-ayrı dünya dövlətləri ilə münasibətlərin dinamik inkişafına xüsusi əhəmiyyət verir. Prezidentin son günlərdə bir sıra ölkələrin rəsmi şəxslərini respublikamıza səfərləri çərçivəsində qəbul edərkən səsləndirilən fikirlər, eləcə də dövlətimizin başçısına ünvanlanan təbrik məktublarında, telefon zənglərində ifadə olunan münasibətlər yuxarıda qeyd olunanları bir daha təsdiqləyir. Bu, əslində, Prezident İlham Əliyevin haqq-ədalət uğrunda mübarizəsinin təntənəsi, yürütdüyü müstəqil siyasətin məntiqi nəticəsi kimi diqqət çəkir.

Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsidir ki, bu gün aparıcı mövqeyə malik olan Avropa dövlətlərinin bir çoxu beynəlxalq münasibətlər sistemində respublikamızın tərəfdaşı kimi çıxış edir. Bu ölkələr sırasında nəinki Avropanın, eləcə də dünyanın siyasi və iqtisadi həyatında, habelə beynəlxalq münasibətlər sistemində xüsusi diqqət çəkən Böyük Britaniya da mühüm yer tutur.

Uzun müddətdir ki, Azərbaycan Böyük Britaniya tərəfindən Qafqaz və Xəzər regionunda etibarlı tərəfdaş kimi tanınıb. Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Böyük Britaniyanın ötən illərdə ölkəmizin ərazi bütövlüyünə verdiyi dəstək Azərbaycanda yüksək qiymətləndirilib. BMT Təhlükəsizlik Şurasında Ermənistan tərəfindən Azərbaycanın işğal edilən ərazilərinin boşaldılmasını tələb edən qətnamələrin qəbulunda da Böyük Britaniyanın böyük təsiri olub. Bu ölkə, həmçinin Azərbaycanın Avropa məkanına və strukturlarına inteqrasiyasına öz dəstəyini verib.

Dövlətimizin başçısı martın 9-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edərkən bu barədə ətraflı söhbət açıb. Prezident İlham Əliyev bu il Azərbaycanla bu ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırladaraq, bununla əlaqədar Böyük Britaniyanın Baş naziri Boris Conson tərəfindən ona ünvanlanan səmimi məktubu xüsusi vurğulayıb. Ölkə rəhbəri, eyni zamanda, Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə qurulduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini bildirərək, hər iki ölkənin əməkdaşlığının qarşılıqlı inam və etimada əsaslandığını diqqətə çatdırıb.

Prezident İlham Əliyev görüşdə Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşı və iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkə olduğunu xatırladaraq, iqtisadi, ticarət əlaqələrinin genişlənməsini, enerji sahəsində əməkdaşlığını və bu sahədə BP-nin respublikamızda uğurlu fəaliyyətini xüsusi qeyd edib.

Yeri gəlmişkən, Azərbaycan–Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə inkişafının nəticəsi Vətən müharibəsi dövründə də özünü aydın göstərib. Belə ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında müharibənin başlanmasından bir müddət sonra BMT-nin Təhlükəsizlik Şurasında bəzi dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-obyektiv, qərəzli mövqeni əks etdirən bəyanatın qəbul etməsinə nail olmaq istəyərkən, məhz bir sıra tərəfdaşlarımızla bərabər, Britaniya da buna yol verməyib. O zaman bu ölkənin BMT TŞ-dəki daimi nümayəndəsi Barbara Vudvordun çevik və prinsipial mövqeyi ədalətin bərqərar olmasına kömək edib.

Şübhəsiz ki, bütün bu müsbət məqamlar Azərbaycanın apardığı rasional və strateji hədəflərə istiqamətlənən xarici siyasət nəticəsində reallaşıb. Prezident İlham Əliyev ötən illər ərzində Bakı və London arasında daim gələcəyə yönələn və dövlətimiz üçün həssas olan məsələlərin həllini daim diqqət mərkəzində saxlayıb.

Dövlətimizin başçısı Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edərkən, bu ölkə şirkətlərinin işğaldan azad edilən ərazilərimizdə fəaliyyət göstərməsini, xüsusilə şəhərlərin planlaşdırılması, minalardan təmizləmə və digər sahələrdə uğurlu fəaliyyətini də vurğulayıb.

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandallıq əməlləri törətdiklərini deyən Prezident İlham Əliyev düşməndən təmizlənən torpaqlarda Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə də məlumat verib. Həmin ərazilərdə, ilk növbədə, infrastrukturun yaradılması, yollar, elektrik enerjisi, minalardan təmizləmə istiqamətində intensiv fəaliyyətin aparıldığını bildirib. Ölkə rəhbəri, eyni zamanda, Azərbaycanın enerji siyasətində bərpaolunan enerjiyə xüsusi əhəmiyyət verildiyini, artıq bir çox xarici şirkətlərlə bu sahədə əməkdaşlığın qurulduğunu deyərək, BP ilə də enerji sahəsindəki ənənəvi əməkdaşlığa əsaslanaraq bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, BP-nin Azərbaycanın neft-qaz sektorunun inkişafı və modernləşdirilməsinə verdiyi mühüm töhfələr vasitəsilə Böyük Britaniya enerji sənayesində ölkəmizin əsas tərəfdaşıdır. BP şirkəti ilə sıx əməkdaşlıq Azərbaycanın neft strategiyasının həyata keçirilməsində başlıca rol oynayır. BP və digər şirkətlərlə birgə reallaşdırılan enerji layihələri respublikamızın iqtisadi müstəqilliyinin təməlində dayanan əsas amildir. Bütün bunlar Böyük Britaniyanın Azərbaycanın inkişafında oynadığı aparıcı roldan xəbər verir.

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf siyasəti həyata keçirilir. Bu kurs iki ölkə arasında əməkdaşlığın qeyri-neft sektorunda daha da inkişafı üçün zəmin yaradır.

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandallıq əməlləri törətdiklərini deyən Prezident İlham Əliyev düşməndən təmizlənən torpaqlarda Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə də məlumat verib. Həmin ərazilərdə, ilk növbədə, infrastrukturun yaradılması, yollar, elektrik enerjisi, minalardan təmizləmə istiqamətində intensiv fəaliyyətin aparıldığını bildirib. Ölkə rəhbəri, eyni zamanda, Azərbaycanın enerji siyasətində bərpaolunan enerjiyə xüsusi əhəmiyyət verildiyini, artıq bir çox xarici şirkətlərlə bu sahədə əməkdaşlığın qurulduğunu deyərək, BP ilə də enerji sahəsindəki ənənəvi əməkdaşlığa əsaslanaraq bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev Baronessa Emma Nikolsonla söhbət zamanı Qarabağda infrastrukturun yaradılmasından bəhs edərkən toxunduğu bərpaolunan enerji məsələsinə bu gün respublikamızda fəaliyyət göstərən Böyük Britaniya şirkətləri tərəfindən xüsusi önəm verilir. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "İşğaldan azad olunan ərazilərdə hər şey dağılıb. Bərpa olunan enerji sahəsində böyük potensial var. Mən Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilirəm. Çox yaxşı günəş, külək, su potensiali var. Beləliklə, biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq. Mən artıq bu əraziləri "yaşıl zona" ərazisi elan etmişəm. Biz insanların tələbatını ödəmək üçün külək, günəş və sudan əldə olunan enerjidən istifadə edəcəyik. Biz artıq elektrik enerjisi ixracatçısına çevrilmişik. Bu səbəbdən də bunun üçün potensial həqiqətən də çox yüksəkdir. Sözsüz ki, ölkələrimiz arasında əməkdaşlıq üçün bir çox başqa sahələr böyük əhəmiyyət kəsb edir…".

Xatırladaq ki, Böyük Britaniya bərpaolunan enerji sektorunda və təmiz enerji istehsalında dünya lideridir. Buna görə də bu ölkənin Günəş və külək enerjisi ilə zəngin Qarabağı, eləcə də ətraf rayonları "yaşıl enerji" zonalarına çevirəcəyi heç bir şübhə doğurmur.

Yuxarıda qeyd edildiyi kimi, təkcə Böyük Britaniya deyil, İtaliya və Fransa rəhbərləri tərəfindən də son günlər Prezident İlham Əliyevə məktublar göndərilərək, ikitərəfli münasibətlər yüksək dəyərləndirilib. Bu isə dövlətimizin başçısının milli maraqlara söykənən, tərəfdaşlarının da mənafeyi nəzərə alınan müstəqil xarici siyasət kursunun uzaqgörənliyi, mükəmməlliyi nəticəsində mümkün olub. Məhz bunun sayəsində Azərbaycan artıq beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilib və böyük nüfuz sahibinə çevrilib.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**